# XALQIN İNAMINA VƏ DƏSTƏYİNƏ ARXALANAN GÜCLÜ LİDER



> Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz.
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

**Son dərəcə mürəkkəb geosiyasi regionda və hələ bir çox qlobal layihələrin tam fəaliyyətə başlamadığı Azərbaycana rəhbər seçilərək ağır məsuliyyəti və taleyüklü məsələlərin həllini öz üzərinə götürən dövlət başçısı cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 18 ildə inanılmaz tarixi uğurlara imza atmışdır.**

Dekabr ayının 24-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev özünün 60 illik yubileyini 44 günlük Vətən müharibəsində əldə olunmuş Tarixi Zəfər nəticəsində işğaldan azad edilmiş Qarabağda qeyd edib.

İlk öncə Xocavənd rayonunun Hadrut qəsəbəsində yeni tipli Komando hərbi hissəsinin açılışında iştirak etmiş cənab Prezident döyüş əməliyyatlarının tamamlanmasına, əldə etdiyimiz Zəfər nəticəsində regionda yeni reallığın yaranmasına baxmayaraq, Silahlı Qüvvələrimizin gücləndirilməsi məsələlərinin hər zaman gündəmdə olacağını xüsusilə vurğulayıb.

Ümumiyyətlə qeyd etməliyik ki, cənab İlham Əliyevin Qarabağa, o cümlədən də Xocavəndə səfərləri xüsusi əhəmiyyət daşıyır. Yada salaq ki, bu il martın 15-də dövlət başçısı ailə üzvləri ilə birgə bu rayona səfər etmişdir. Həmin səfər zamanı cənab Prezident Azərbaycan ordusunun qələbəsi, tarixi ədaləti bərpa etməsi və ermənilərin törətdikləri vəhşiliklərlə bağlı bir çox vacib məqamlara toxunmuşdu.

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq və şücaət göstərərək şərəfli missiyasını uğurla yerinə yetirdi, düşməni əzəli torpaqlarımızdan qovdu, düşmən üzərində mütləq qələbəsini təmin etdi, tarixi ədaləti bərpa etdi. Ordumuz təkcə yeddi rayonu deyil, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini düşməndən azad etdi.

Onu da qeyd edək ki, Ermənistandan fərqli olaraq Azərbaycan Ordusu yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərlərdən ibarətdir. Ordumuz heç zaman mülki əhaliyə qarşı müharibə aparmadı, ancaq erməni hərbi birləşmələrinə qarşı döyüşdü. 90-cı illərin əvvəllərində Xocalı soyqırımını törədən Ermənistan ordusunun əli 2020-ci ildə də bir çox günahsız azərbaycanlı mülki vətəndaşın qanına batdı. Bu, erməni vəhşiliyinin ən bariz nümunələrindəndir.

Martdakı səfər zamanı cənab İlham Əliyev çıxışında Hadrut şəhərinin işğaldan azad olunmasının hərbi və siyasi əhəmiyyətinə də toxunmuşdu. Cəbrayıl rayonundan sonra Hadrutun azad edilməsi Azərbaycan Ordusunun hərbi əməliyyatları davam etdirməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı. Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə düzgün strategiya seçərək əvvəlcə Hadrutu, sonra Füzulini işğaldan azad etdi. Ermənistan ordusu isə Azərbaycan Ordusunun digər istiqamətlərdən hücum edəcəyini gözləyirdi. Ancaq ordumuz çətin döyüş şəraitinə baxmayaraq, sıldırım qayalardan keçərək növbəti mərhələdə Şuşanı işğaldan azad etdi.

Cənab Prezident həmin çıxışında erməni vəhşiliyinə də geniş toxunmuşdur: "Ermənilər işğal etdikləri bütün əraziləri vəhşicəsinə dağıdıblar. Hətta evlərin daşlarını, damlarını oğru kimi söküb aparıblar, qəbirləri təhqir ediblər. Ermənilər bu dağıntıları müharibədən sonra, məhz işğal dövründə törədiblər".

2021-ci ilin mart ayında, yəni müharibədən cəmi dörd ay keçməsinə baxmayaraq, cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad olunmuş bölgələrdə infrastruktur layihələrinin icrasına başlanılmışdır. 15 martda bölgə iqtisadiyyatına mühüm töhfə verəcək Füzuli-Hadrut avtomobil yolunun təməlqoyma mərasimi keçirildi. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası baxımından da böyük əhəmiyyət daşıyır. Bu, ilk layihə deyildi, artıq bir neçə yol layihəsi icra olundu, digərlərin də tamamlanmasına çox qalmayıb.

Cənab İlham Əliyevin Xocavənd rayonuna növbəti səfəri bu il oktyabrın 9-na təsadüf etmişdir. Hadrut qəsəbəsində və Tuğ kəndində dövlət başçısı Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış olmuş, 35 kilovoltluq yeni "Hadrut" yarımstansiyasının və Hadrut qəsəbəsində yeni məscidin təməlini qoymuşdur. Bununla yanaşı, cənab Prezident Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, daha sonra onlarla birlikdə Tuğ kəndinə getmişdir.

Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı cənab İlham Əliyev bildirmişdir ki, 2021-ci il oktyabrın 9-u Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Rayon ictimaiyyətini və bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edən dövlət başçısı bu günü onlarla birlikdə Hadrutda qeyd etməyin xüsusi məna daşıyan hadisə olduğunu vurğulamışdır: "Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır".

**(davamı 2-ci səhifədə)**

# XALQIN İNAMINA VƏ DƏSTƏYİNƏ ARXALANAN GÜCLÜ LİDER

**(əvvəli 1-ci səhifədə)**

Artıq qeyd etdiyimiz kimi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Hadrut qəsəbəsində yeni tipli Komando hərbi hissəsinin açılışını etdi. Son 18 ildə Azərbaycanda xeyli sayda yeni hərbi hissələr formalaşdırılmış, hərbi şəhərciklər salınmışdır. Ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirlər sırasında hərbi hissələrin yaradılması xüsusi önəm daşıyır. Artıq Azərbaycanın bütün regionlarında yerləşən hərbi hissələr ən yüksək standartlara cavab verir. Qarabağ bölgəsinin son dərəcə vacib strateji əhəmiyyətə malik olan Hadrut qəsəbəsində yeni tipli Komando hərbi hissənin açılışı da bu mühüm işlər sırasında önəmli yer tutur. Sözügedən həmin hissədə şəxsi heyətin xidməti və yaşayışı üçün bütün lazımi şərait ən yüksək səviyyədə yaradılıb.

Hərbi hissənin açılışı mərasimində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vurğuladığı kimi, hazırda Azərbaycanda hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların mənzil-məişət problemlərinin həlli də hər zaman dövlətimizin diqqət mərkəzindədir. 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən mənzillər təqdim olunur ki, artıq bu günə kimi 2200-dən artıq hərbçiyə dövlət tərəfindən mənzil verilmişdir. Xüsusilə qeyd olunub ki, Azərbaycanda müharibədən sonra ordu quruculuğu prosesi dayandırılmayıb, orduya ayrılan xərclər isə artırılıb. Müharibədən sonra imzalanmış yeni kontraktlar əsasında Ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır.

Hadrut qəsəbəsində yeni tipli Komando hərbi hissəsinin açılışından sonra dövlət başçımız ailə üzvləri ilə birgə Qarabağın incisi Şuşa şəhərinə gəlmişdir. Cənab Prezidentin Şuşaya budəfəki səfəri onun 60 illik yubileyinə təsadüf edir. Cənab İlham Əliyevin öz ad günlərini Azərbaycan xalqı ilə birlikdə qeyd etməsi, həmin gün sosial obyektlərin açılışlarında iştirak etməsi, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşməsi artıq bir ənənəyə çevrilib. Öz 50 illik yubileyini Ağcabədidə məcburi köçkünlərlə birgə keçirən cənab Prezident bu il dekabrın 24-də 60 yaşını da ailə üzvləri ilə birlikdə Qarabağda qeyd etdi. Bu arada dövlət başçımızın Şuşaya etdiyi səfərlərin xronologiyasına qısaca da olsa nəzər salmağı vacib bilirik.

Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərinin qoyulması tədbirində iştirak etmiş, Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltmış, hərbçilərlə görüşmüş və çıxış etmişdir. Dahi şəxsiyyətlərimizin büstlərinin yenidən doğma Şuşamıza qaytarılması isə çox böyük rəmzi məna daşıyırdı. Cənab Prezident Şuşa şəhərindəki Saatlı məscidini də ziyarət etmiş, ailə üzvləri ilə birgə Şuşadakı Qazançı kilsəsində olmuşdur.

Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində aparılan tikinti-bərpa işləri ilə tanış olmuşlar. Onlar Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırmışlar.

Mayın 12-də isə dövlət başçısı ailə üzvləri ilə birgə Şuşada növbəti səfərdə olmuş, bir sıra tikiləcək obyektlərin təməlqoyma mərasimində və artıq tikintisi başa çatdırılmış obyektlərin açılışında iştirak etmişdir. Şuşada həmçinin yeni məscidin təməli qoyulmuşdur. Bununla yanaşı, cənab İlham Əliyev 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyasının açılışında iştirak etmiş, Şuşada "Xarı Bülbül" otelinin yenidənqurmadan sonra açılış tədbirinə də qatılmış, otelinin nəzdindəki korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olmuşdur. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailəsi Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirmiş, bərpa edilən "Xan qızı" bulağında olmuşlar. Bu səfər çərçivəsində Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanışlıq baş tutmuş, cənab Prezident həm də Şuşa Rəsm Qalereyasında görülən işlərlə maraqlanmış, Şuşadakı 1 saylı ümumtəhsil məktəbinin təməlini qoymuş, Yuxarı Gövhərağa məscidində olmuşdur.

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına da ev sahibliyi etmişdir. Qədim mədəniyyət beşiyi 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılamışdır. Cənab İlham Əliyev ailə üzvləri ilə birgə Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalında iştirak etmişdir.

İyunun 15-də isə Qarabağın incisi hesab olunan bu tarixi şəhərə növbəti səfəri zamanı Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamışlar. Prezidentlər həmçinin, "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" kompozisiyasının təqdimatında iştirak etmişlər. Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilmişdir.

Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak etmişlər.

Noyabrın 7-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasiminə qatılmışlar. Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağacəkmə aksiyası çərçivəsində dövlət başçısı və birinci xanım Cıdır düzündə ağac əkmişlər. Cənab Prezident VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə görüşmüş, Şuşada Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olmuş, Şuşa Radio-Televiziya Yayımstansiyasının və Daşaltı məscidinin təməlqoyma mərasimlərində iştirak etmişdir.

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəfər yolunun açılışında iştirak etmiş, Türkiyənin milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmiş, həmçinin, Şuşada hərbçilər qarşısında çıxış etmişdir.

Prezident, Müzəffər Ali Baş Komandan və müdrik sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin ən qısa zamanda qalibi olan Azərbaycan dövlətinin, Azərbaycan xalqının və Milli Ordumuzun bir yumruq kimi birləşib göstərdiyi şücaət, qəhrəmanlıq haqqında da bir çox araşdırmalar aparılacaq, kitablar yazılacaqdır. Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən döyüş taktikası və texnikasının, eyni zamanda, güclü və dayanıqlı iqtisadiyyatın əsasında yüksək texnoloji və intellektual hərbi potensiala malik vətənpərvər nizami milli ordunun yaradılması üçün xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış lider amili çox vacib şərtlərdəndir.

Hakimiyyətdə olduğu 18 il ərzində güclü iqtisadiyyat və bu iqtisadi tərəqqi üzərində qüdrətli ordu yaradılmasına nail olan Prezident İlham Əliyev Vətən müharibəsində Azərbaycan ordusunun Şanlı Qələbəsinin memarı oldu və Qarabağın mirvarisi olan Şuşa şəhəri azad ediləndən sonra Ermənistan kapitulyasiya etdi.

60 illik yubileyini Qarabağda - Şuşada keçirən Prezident İlham Əliyev məşhur Cıdır düzündə çıxış edərək bir daha qeyd edib ki, 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər xalqın dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq.

Heç şübhəsiz, hədəfinə nail olmuş Azərbaycan xalqı işğal altındakı torpaqlarını Lideri ətrafında sıx birləşməklə, Ordusuna dəstək olmaqla azad etdi. Xalq öz Prezidentinə və Zəfərə hər zaman inandı. Artıq bayrağımız işğaldan azad olunmuş torpaqlarda, o cümlədən Şuşada dalğalanır. Cənab İlham Əliyevin söylədiyi kimi, Qarabağda Azərbaycan muğamı əbədi səslənəcək.

**Emin QASIMOV,**
**"Respublika".**